*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 23 noyabr 2019-cu il № 91 (2408) Qiymәti 30 qəpik


*Ön xətdən reportaj*

## “Yaz ovqatı arzulayır könlümüz”



Təbiətdə payızdı, "Mən azərbaycanlıyam!" deyənlərin ürəyi yaz niyyətlidi; Böyük Vətən müharibəsində qələbə yazda qazanılmışdı, 2016-cı ilin yazında Azərbaycan Ordusu böyük qələbə qazandı. Bu, ruhumuzun qələbəsiydi; tarixən ruhun qələbəsi Böyük Qələbələrin başlanğıcı olur. Aprel zəfəri Azərbaycan əsgərinin qazanacağı Böyük Qələbənin başlanğıcı kimi tarixləşdi; təqvimdə 2019-cu ilin noyabrıdı, könüllər 2016-cı ilin aprelinin ovqatının davamının intizarındadı...

Payızın son ayında yazın ilk aylarının ovqatını, bu gözəl ovqatın ruhunu hiss edirəm. Bu hisslərin davamlılığı, Vətənə, torpağa, dövlətə, dövlətçiliyə bağlılığı, bir də ictimaiyyətin orduya inamına bələdliyin təzahürü kimi düşüncələrimdə qələbə ovqatı kükrəyir. Bu yaşarı kükrəyişi səngərlərə çatdırmağa tələsirəm; bir azdan bu kükrəyiş əsgərlərin döyüş əzminə, qələbə ruhuna sarılacaq. Bu kükrəyiş həm də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Soçi şəhərində ictimailəşmiş "...Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" - bəyanatından mənəvi güc alan əsgərlərin döyüş hazırlığına, bu hazırlığın davamı olan döyüş əzminə, döyüş əzminin davamı olan qələbə ruhuna bələdliyin, bələdliyin davamı olan inamın, güvəncin kükrəyişidi.

(Ardı 2-ci səhifədə)



“Əsgərlərimiz qələbə ruhu ilə xidmət edirlər”

3-cü səhifədə



Müharibə veteranına “Azərbaycan bayrağı” ordeni təqdim olunub

4-cü səhifədə



Moskvada keçirilən “Katyuşa” festivalı uğur gətirdi

5-ci səhifədə



“Bir ömürdə neçə ömür yaşadırıq biz”

7-ci səhifədə



# Türkiyə HDQ nümayəndə heyəti Bakıda səfərdədir

Bakıda səfərdə olan Türkiyə Hərbi Dəniz Qüvvələrinin (HDQ) nümayəndə heyəti Azərbaycan Hərbi Dəniz Qüvvələrinin qərargahını ziyarət edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, nümayəndə heyətlərinin görüşündə iki ölkənin hərbi dəniz qüvvələri arasında əməkdaşlıq məsələləri müzakirə olunub və qarşılıqlı təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb.

# Müdafiə Təhsilinin Genişlənməsi Proqramı çərçivəsində işçi görüşləri keçirilib

*NATO-nun Müdafiə Təhsilinin Genişlənməsi Proqramı (DEEP) çərçivəsində Bolqarıstan Hərbi Dəniz Akademiyasının ekspertləri Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində olublar.*




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, səfər çərçivəsində nümayəndə heyətinin üzvləri məktəbdə keçirilən işçi görüşlərdə iştirak ediblər.

Görüşlər zamanı hərbi təhsil sisteminin inkişafı, eləcə də əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb, hərbi təhsilin metodologiyası üzrə bir sıra məsələlər müzakirə edilib, bu sahədə qazanılmış təcrübə üzrə qarşılıqlı brifinqlər təqdim olunub.

# "Yaz ovqatı arzulayır könlümüz"



(Əvvəli 1-ci səhifədə)

Səngərdəyik....

Əsgərlərin əhatəsində olanda sənə elə gəlir ki, bir boy da dikəlibsən, az sonra qarşı tərəfin o üzündə qalan torpaqlarımızın bizə sarı boylanan həsrətini görəcəksən. Görəcəklərin qəlbini qana döndərəcək. Onda əli avtomatın qundağını əzən əsgərlərin sırasında sənin barmaqların düyünləşəcək - yumruqlaşacaq. Əsgərlərin əhatəsindəsən deyə, şəhidlərin ruhunun qayibanə gileyini də, torpağın harayını da aydınlığıyla eşidəcəksən: "Haradasınız? Gəlin, ağrı-acı bizi üzür axı...". Onda Ali Baş Komandanın bir kəlamını da xatırlayacaqsan: "Azərbaycan dövləti, Azərbaycan xalqı Azərbaycanda ikinci erməni dövlətinin yaranmasına imkan verməyəcək". Bu xatırlamanın qüruru əsgərlərin baxışlarının qətiyyətiylə qoşalaşır...

Səngərdə əsgərlərin, əsgərlərin timsalında ordunun gücünə inamın daha da artır, sənə elə gəlir ki, kürəyini dağa söykəmisən. Gördüklərin həmin anlarda da, sonra da düşündüklərinə, düşüncələrinin mahiyyətinə hopur. Bu qənaət cazibəsindəykən zabit Ruslan Novruzov deyir:

- Bu bəyanatı hamımız döyüşə hazırolma bəyanatı bilirik.

Ayrı-ayrı hərbi hissələrdə bu bəyanata münasibətin uyğunluğu, mütənasibliyi, bəzən eyniliyi Azərbaycan Ordusunun zabitlərinin işıqlı düşüncələrinin milli-mənəvi dəyərlərimizdən rişələndiyi kimi yozulmalıdır. Zabitin baxışlarında məmnunluq işartıları görürəm. Bu məmnunluq həm də əsgərlərin düşüncələrinə görədi:

- Biz əsgərik. Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətlə xidmət edirik. Bu bəyanat hər birimizin döyüş əzmini, qələbə ruhunu daha da artırıb (əsgər Qurban Kosayev).

- Azərbaycan Ordusunun şəxsi heyəti bu bəyanatın mahiyyətini hərbi xidmətinin tərkib hissəsi bilir və Ali Baş Komandanın döyüş əmrini qələbəylə tamamlayacaq (əsgər Əli Əliyev).

- Yəni, bu qələbəylə torpaqlarımız işğaldan tamamilə azad ediləcək (əsgər Sərxan Babakişiyev).

Məmnunluğum məmnunluqla qoşalaşır və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir kəlamını xatırladıram: "Ordu quruculuğu prosesi bundan sonra da sürətlə davam edəcək. Bu bizim diplomatik sahədə apardığımız səylərə böyük dəstəkdir". Bu fikir ordu quruculuğunun dönməz proses kimi davam etdiriləcəyini ifadə edir, - deyirəm.

Zabit Sərxan Muxtarov bunun reallıq olduğunu bildirir:

- Azərbaycan Ordusunun silahlanmasına ən müasir texnikalar, avadanlıqlar, qurğular daxil edilib, bu proses davam etməkdədir, ordumuzda müxtəlif təyinatlı təlimlər keçirilir. Bunlar istər ayrılıqda, istərsə də birlikdə ordunun gücünün artırıldığının təsdiqidir.

Əsgərlər deyilənləri maraqla dinləyirlər. Ali Baş Komandanın ordu quruculuğuyla bağlı fikirlərini bir daha eşitmək onların düşüncələrinin indiki yönümünü müəyyənləşdirir.

- Zabitlərimiz deyirlər ki, ordumuzun silahlanmasına müntəzəm olaraq yeni silahlar daxil edilir, əsgərlərimiz onların istismar xüsusiyyətlərini mükəmməl mənimsəyirlər. Məişət şəraitimiz yüksək səviyyədədir. Bunlar dövlətin orduya diqqətinin nəticəsidir, - kiçik çavuş Nurəddin Əsgərli belə deyir. Əsgərin qüruru seziləndir. Bu qürur digər əsgərlərin də fəallaşmasında vəsilə olur.

Kiçik çavuş Vasif Ağalarov deyir:

- Qonşumuz 4 il əvvəl hərbi xidmətdə olub. Tərxis edildikdən sonra onunla həmişə söhbətləşirdik. Hərbi xidmətlə bağlı fikirlərini də, xatirələrini də maraqla dinləyirdim. Mən hərbi xidmətə gələndə onun dediklərinin xeyli dəyişdiyini gördüm. Bizdən sonra xidmət edəcək əsgərlər də yenilikləri, təkmilləşmələri görəcəklər, onlar da mənim kimi eyni fikirləri deyəcəklər.

Əsgər Emil Abdullayevin dedikləri ordu-ictimaiyyət münasibətləri baxımından maraqla dinlənilir:

- Yeniyetməliyimdə, çağırışçı yaşlarımda orduda həyata keçirilən islahatlar haqqında mən də çox eşitmişdim. Yeni hərbi hissələrin inşa edilməsindən, əsaslı təmirindən vətəndaş olaraq mən də qürurlanırdım. "Açıq qapı" günlərində bu yenilikləri ictimaiyyətin nümayəndələri görürdü. Bu isə o deməkdir ki, ordu quruculuğundan hamı məlumatlı olur, yəni, ictimaiyyət orduya, yəni, bizə inanır, güvənir.

Əsgərin son kəlmələri həm də Azərbaycan əsgəri "Müdafiə naziri general-polkovnik Zakir Həsənovun dediyi kimi, "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" amalıyla xidmət edir" - kimi dinlənilir. Zabit Ruslan Novruzov gözdolusu əsgər Emil Abdullayevə, sonra o biri əsgərlərə baxır. Bu davamlı baxışlarda etibar görürəm, güvənc görürəm, bu etibarı, bu güvənci eşidəcəklərimizin başlanğıcı bilirəm:

- Müxtəlif hərbi hissələrdə xidmət edən zabitlərlə söhbətlərinizdə eşitdiklərinizin eyni, bənzəri olsa da deyirəm ki, yüksək döyüş hazırlığına malik olan Azərbaycan əsgəri yüksək mənəvi-psixoloji hazırlığa da malikdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Soçi şəhərindəki bəyanatı Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu daha da artırıb, hər biri Ali Baş Komandanın döyüş əmrinə hazırdır...

Zabitin əsgərlərə əminliyini də, inamını da, güvəncini də ordunun güc amili bilirəm. Zabit Ruslan Novruzov qənaətimi bəyənir və deyir ki, komandirin inamını qazanan əsgər daha güclü əsgərdi.

Güclü əsgər ifadəsi könlümə yatır və əsgərlərin bu gözəl ifadəyə münasibətini bilmək istəyirəm. İstəyim gerçəkləşir:

- Güclü əsgər yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olur (əsgər Qurban Kosayev).

- Güclü əsgər nümunəvi əsgərdi, Hərbi anda, dövlətə, dövlətçiliyə sədaqətli əsgərdi (əsgər Kamran Rəsulov).

- Güclü əsgər hərbi xidməti ömrünün mənası bilən əsgərdi (əsgər Məlik Cavadov).

Hər üçü bir məqamda həmfikirdi:

- Güclü əsgər dövlətin ərazi bütövlüyünün bərpa edilməsi üçün Ali Baş Komandanın əmrinə hazır olan əsgərdi...

Son vaxtlar respublikamızda ordu quruculuğunda aparılmış və aparılan irimiqyaslı islahatlardan, bu islahatların şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığını yüksəltməsindən, ordunun ən müasir hərbi texnikalarla, atıcı silahlarla təmin olunmasından danışırıq. Söz sözü çəkir. Söhbətimiz "Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatının qüdrətiylə tamamlanır. Bu qüdrət deyir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi sülh yoluyla həll edilməzsə, Azərbaycan Ordusu torpaqlarını işğaldan döyüşlə azad edəcək. Dünyanın 50 ən güclü ordusu sırasında olan Azərbaycan Ordusu buna qadirdir. Bu bəyanat bu qadirliyin bəyanatıdı. Əsgərlər bu bəyanatı döyüşə hazırolma bəyanatı bilirlər.

...Payızın son ayında yaz aylarının ovqatını, bu ovqatın ruhunu hiss edirik. Zabitlər də, əsgərlər də, biz də...

Səngərdə salamlaşandan az sonra "bu bəyanatı hamımız döyüşə hazırolma bəyanatı bilirik", - deyilmişdi. Sağollaşanda payızın son ayında yaz ruhu görənlər "Ali Baş Komandanın döyüş əmrinə hazırıq!", - deyirlər. Bir boy da dikəlib qarşı tərəfə baxıram...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

*Gənc zabitlərimiz*

# “Amalımız qələbədir!”

Leytenant Həsən Zayidov Salyan rayonunda dünyaya göz açıb. Torpaqlarımız uğrunda gedən döyüşlərdə iştirak edənlərin sıralarında olmaq istəyindən həmişə hərbiyə xüsusi sevgisi olub. Təhsil müəssisəsində oxuduğu illərdə hərbə hədsiz marağı yaranıb. Təcrübəli zabitləri əhatəsində görəndə sevinib, onlardan çox şey öyrənməyə çalışıb. Oxuduqları, öyrəndikləri isə onu gələcəyin savadlı, vətənpərvər hərbçisi olmağa ruhlandırıb. - Məktəbdə oxuduğum illər xatirimdə silinməz iz buraxıb, - leytenant dedi. - Zabit peşəsi daha çox öyrənməyi, çalışqan olmağı tələb etdiyi üçün orta məktəb illərində hər zaman öz üzərimizdə çalışır, nəsə öyrənir, kamilləşir, dünyagörüşümüzü artırırdıq. Müəllimlərimiz həmişə deyirdi ki, tabeliyindəki əsgərlərin qarşısına çıxan zabit bütün keyfiyyətləri ilə - savadı, davranışı, dünyagörüşü ilə onlara nümunə olmalıdır. Daim Ümummilli Liderimizin ömür yolu, Vətən, xalq qarşısında böyük xidmətləri bizə təbliğ olunurdu. Dahi rəhbərin irsini dərindən öyrənirdik, indi də öyrənirik. Bilirik ki, onun tövsiyələrinə əməl etməklə gələcəyin bacarıqlı peşə sahibləri olacağıq.

Həsən leytenant hərbi rütbəsini alaraq, ön xətt hərbi hissələrinin birində xidməti vəzifələrinin icrasına başlayır. İlk günlərindən çalışır ki, xidməti ilə digər zabit yoldaşlarından seçilsin, nümunəvi olsun. İstəyinə nail olur.

O, hərbi hissənin nümunəvi və bacarıqlı zabitlərindəndir. Xidmətdə qazandığı uğurları həm doğma kollektivinə, həm də valideynlərinə başucalığı gətirir.

Tabeliyindəkilərə qarşı tələbkar və qayğıkeş olan zabitimiz bildirdi ki, hər bir zabit şəxsi heyətin təlim-tərbiyəsində müasir metod və üsullardan istifadə etməlidir. - Əsgərlərimiz hərbi xidmət dövründə döyüş vərdişləri qazanmaqla Vətənimizin etibarlı döyüşçüləri kimi yetişirlər. Bizim də əsas vəzifəmiz əsgərlərimizi



peşəkar döyüşçü kimi hazırlamaqdır. Onların fiziki, atəş, döyüş hazırlıqların daim diqqət mərkəzində saxlayırıq. Məktəb illərində öyrəndiklərimizi onlara öyrədirik, - deyən Həsənə görə əsgərlərə göstərilən diqqət və qayğı onu nümunəvi xidmət etməyə ruhlandıran əsas amillərdəndir.

Düşmənlə üz-üzə mövqelərdə xidmət etməyin məsuliyyətindən danışan zabit qürurla bildirdi ki, burada xidmət etmək həm də şərəflidir. "Ön xətdə xidmət etmək hər bir hərbi qulluqçuya vacib xüsusiyyətləri aşılayır, hansı ki, bütün bunlar qəhrəmanlığa səbəb olur. Şübhəsiz ki, ön xətdə çətin şəraitdə Vətənə övladlıq borcunu yerinə yetirən əsgərin bacarıqlı döyüşçü kimi formalaşmasının əsas məsuliyyəti biz komandir heyətinin üzərinə düşür. Komandir əsgərin güvənc yeridir. Əsgər hər addımda komandirinə inanmalıdır. Əslində, bu mövqelərdə döyüş tapşırığını yerinə yetirmək vəzifəsi komandirlə əsgəri bir amal ətrafında birləşdirir - Vətəni qorumaq, müdafiə etmək və işğal altında olan torpaqlarımızı azad etmək. Bu amal əsgərlə komandir arasında komandir-əsgər münasibətini daha da gücləndirir. Buna görə də hər zaman çalışıram ki, hər bir əsgər ürəyindəkiləri məndən gizli saxlamasın. Problemi olan əsgərlə fərdi söhbət aparıram, birlikdə müzakirə edirik. Belə münasibət şəxsi heyətdə inam və etibar hisslərini gücləndirir".

Vətəni qorumaq, onun bir qarış torpağını canından əziz bilmək hər birimizin vətəndaşlıq borcudur. Leytenant Həsən Zayidov bunu bir borc yox, Vətən məhəbbətinin yaşarılığı, xalqına, millətinə sevgisi bilir. Gənc zabitlə söhbətdən xoş təəssüratlarla ayrıldıq. Bir daha əmin olduq ki, torpaqlarımız əmin əllərdədir. İnanırıq ki, Həsən kimi oğullarımızın sayəsində əzəli və əbədi torpaqlarımız Ali Baş Komandanımızın döyüş əmri ilə düşmən tapdağından tez bir zamanda azad ediləcək. Həmin yerlərdə yenidən şənlik sədaları yayılacaq, bayram tonqalları yandırılacaq.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu"**

# “Əsgərlərimiz qələbə ruhu ilə xidmət edirlər”



*Ön xətdəyəm. Hərbi hissənin dayaq məntəqələri görünür. Zabit Asəf Qurbanov bildirdi ki, hər bir zabitin, hər bir əsgərin Vətənə, xalqa, dövlətə xidmət fəlsəfəsinin özülündə Azərbaycanımızın ərazi bütövlüyünün bərpası dayanır. Xalq ordusuna inanır, ordu xalqına güvənir. Xalqla ordu arasında sarsılmaz birlik mövcuddur. Ordumuzun Aprel zəfəri bu birliyi bir daha təsdiqlədi.*

Bu gün ön xətdə xidmət edən hər bir zabitin, hər bir əsgərin hərbi xidmətini işıqlandırmağın vacib olduğunu, bunun onlarda ruh yüksəkliyi yaratdığını, döyüş əzmini, qələbə ruhunu artırdığını deyən zabit bildirdi ki, şəxsi heyət mənəvi-psixoloji cəhətdən yüksək hazırlıqlıdır: "Onlar daim döyüş vərdişlərini artırırlar. Zabitlərimizdə, əsgərlərimizdə vətənpərvərlik ruhu, Hərbi anda sədaqət hissi yüksəkdir."

Zabit onu da dedi ki, ordumuzun maddi-texniki təminatının güclənməsi, şəxsi heyətin döyüş bacarığının artırılması dövlət başçısının orduya göstərdiyi diqqət və qayğısının nəticəsidir. Ali Baş Komandanın, ordu rəhbərliyinin müntəzəm olaraq təmas xəttinə gəlməsi, hərbi qulluqçularla görüşməsi əsgər və zabitlərimizin ruh yüksəkliyini daha da artırır.

Zabit Malik Məmmədov dedi ki, şəxsi heyətin mənəvi-psixoloji hazırlığında Vətənə sevgi hissinin yüksəldilməsi qədər də düşmənə nifrət hissi əsas amillərdəndir. “Atəşkəsin pozulması nəticəsində də şəhidlər veririk. Düşmənə nifrət hissimiz daha da artır. Peşəkar, ayıqsayıq hərbçilərimizin qətiyyəti sayəsində atəşkəs pozulanda düşmən susdurulur.”

Sürücü müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Mahir Xəlilov xidməti ilə əlaqədar ön xətt bölmələrimizə tez-tez gəldiyini dedi. "Təmas xəttinə yaxın yerləşən kənddə doğulmuşam. Ermənilərin kəndimizin dinc sakinlərini, evləri, yaşayış məntəqələrimizi atəşə tutduğunun dəfələrlə şahidi olmuşam. Kənd camaatı, əlbəttə, ordumuzu, zabitlərimizi, əsgərlərimizi özlərinə arxa-dayaq bilirlər. Hərbi peşə nə qədər çətindirsə, bir o qədər də şərəflidir. Bu peşə, hərbi forma hər zaman insandan yüksək dərəcədə məsuliyyətli olmağı tələb edir. İnşallah, tezliklə düşmən ayağı torpaqlarımızdan çəkilər. Müharibə tezliklə qurtarar. Qaçqın, köçkün düşən soydaşlarımız öz doğma yurd yerlərinə qayıdarlar."

Mövqelərdəyik... Öyrəndik ki, düşmən əsgərlərimiz tərəfindən sayıqlıqla izlənilir.

Bölmənin maddi-texniki təminatı yüksək səviyyədədir. Burada şəxsi heyətin məişət şəraitinin yaxşılaşdırılması məqsədilə müasir tələblərə cavab verən əsgər yataqxanası, yeməkxana, ideoloji otaq tikilib istifadəyə verilib və digər zəruri tədbirlər həyata keçirilib. Əsgər yataqxanası müasir istilik və havalandırma sistemi ilə təchiz olunub. Ön xətdə xidmət edən hərbi qulluqçular üçün yaradılan şərait ürəkaçandır. Yüksək şərait döyüş ruhunun yüksəldilməsində vasitə olur. Əsgər yaradılan şəraiti məsuliyyətin artırılmasında başlıca zəmanət bilir.

Zabit Elşən Axundov ön xətt bölmələrimizdə istehkam işlərinin yenidən, daha möhkəm və müasir formada tikildiyini dedi. "Qışa hazırıq. Gördüyünüz kimi, səngərlər dərin qazılıb. Şəxsi heyətin hərəkətinə düşmən tərəfindən heç bir təhlükə ola bilməz. Üstü örtülü uzunmüddətli atəş nöqtələrindən açılan mazğallar düşməni susdurmaq üçündür. Buradan düşmənin yerləşdiyi mövqeləri aydın müşahidə etmək olur. Əsgərlər bir neçə istiqamətdə fasiləsiz müşahidə aparırlar.

Bu müşahidələrə xarakter etibarilə döyüş demək olar. Belə ki, əsgər dözümlü, səbrli olmalıdır. Qarşı tərəfdə hər hansı tərpəniş hiss etsə, nə etməli olduğunu bilməlidir. Bu, əsgərdən həm də qətiyyət, çevik qərar qəbuletmə qabiliyyəti tələb edir. Əsgərlərimiz istənilən situasiyada qanunla, Nizamnamələrlə müəyyənləşdirilən qərarı qəbuletmə qabiliyyətinə malikdirlər. Bəlkə də bunu bilən düşmən atəşkəsi pozmağa tərəddüd edir", - zabit qətiyyətlə bildirdi. Bu kəlmələri də qələbəyə inam bilirəm.

Zabit Asəf Qurbanov söhbətində Elşən Axundovun zəngin hərbi biliyə malik, bacarıqlı zabit olduğunu dedi. “Əsgərlərimizin döyüş hazırlığının artırılmasına böyük əmək sərf edən zabitlərimizin sırasındadır.”

Zabitlər Yusif Məmmədovun və Ədalət Novruzovun da adlarını xüsusi qeyd etmək istərdim. Onlar hər əsgərin istər döyüş, istərsə də mənəvi-psixoloji hazırlığının yüksəldilməsi istiqamətində gərəkli üsul və metodlardan da istifadə edirlər. Hər iki zabit vurğuladı ki, döyüş hazırlığını yüksək mənəvi-psixoloji hazırlıq tamamlamalıdır. “Hər əsgər bilir ki, onun döyüş növbətçiliyi, müəyyən mənada, döyüş əzminə, qələbə ruhuna xidmət edir. Döyüş əzmi də, qələbə ruhu da hərbi xidmətin mahiyyətidir.”

Aprel döyüşlərinin iştirakçısı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Yunis Şirinov söhbətə qoşu-



ldu: "Məişət qayğılarımız yüksək səviyyədə həll olunub, əsgərlərimiz kalorili, keyfiyyətli yeməklərlə təmin ediliblər. Onlarda döyüş ruhu yüksəkdir, hərbi vərdişlərə mükəmməl yiyələniblər. Torpaqlarımız düşməndən azad olmayınca, qələbə gününü görməyincə, hərbi formanı əynimdən çıxarmayacağıma and içmişəm."

Döyüş növbətçiliyini aparan əsgər Rövşən Qəhrəmanov bölmənin nümunəvi əsgərlərindəndir. Rövşən də düşmənlə mövqedə əzmlə dayanıb. Müşahidəni ayıq-sayıqlıqla aparır. Düşməni cavab atəşi ilə susdurmağa hazır olduğunu dedi.

Əsgərlərdən Kənan Zülfüqarlı, Əlieyyub Mirzəliyev əminliklə bildirdilər ki, torpaqlarımızın bir qarışı da düşməndə qalmayacaq. "Qarabağ müharibəsində qəhrəmanlıqlar yeniyetmələri qələbəyə, qələbə üçün döyüşə səfərbər etdi. Qəhrəmanları tanıdıq, hər birimiz onların döyüş yolunu davam etdirmək əzmiylə xidmət edirik.

İnanırıq ki, Azərbaycan əsgəri işğala son qoyub, xalqımıza qələbə sevincini yaşadacaq!

Zabit sonda onu da dedi ki, əsgərlərimiz qələbə ruhu ilə xidmət edirlər.

Ön xətdə Vətənə, xalqa, dövlətə məsuliyyətlə xidmət edən hərbçilərimizlə sağollaşıb ayrılırıq. Yolumuz yenə səngərədir...

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Rəşad ƏMRAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Müharibə veteranına "Azərbaycan Bayrağı" ordeni təqdim olunub



*Noyabrın 20-də Goranboy rayonunun Heydər Əliyev Mərkəzində müharibə veteranı, istefada olan mayor Telman Orucova Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təltif olunduğu "Azərbaycan Bayrağı" ordeni təqdim edilib.*

Müdafiə Nazirliyi rəsmilərinin, Goranboy rayon İcra Hakimiyyəti rəhbərliyinin, hüquq-mühafizə orqanları, qeyri-hökumət təşkilatları və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbir başlamazdan öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda əldə edilən nailiyyətlərdən geniş söhbət açıb. O, qeyd edib ki, bu gün Azərbaycan Ordusu regionun ən güclü ordusudur və istənilən tapşırığı yerinə yetirməyə hər an hazırdır.

2016-cı ilin Aprel döyüşləri və 2018-ci ilin mayında Naxçıvan Muxtar Respublikasının Ermənistanla sərhədlərində aparılan uğurlu əməliyyatlar zamanı min hektarlarla ərazilərimizin nəzarətə götürülməsi, mühüm strateji əhəmiyyətli yüksəkliklərin azad edilməsi Azərbaycan Ordusu tarixinin parlaq səhifələrindəndir. Bu əməliyyatlarda Goranboy rayonundan olan hərbi qulluqçular da öhdələrinə düşən əmr və tapşırıqları layiqincə yerinə yetiriblər.

Tədbirdə vurğulanıb ki, goranboylular həmişə doğma torpaqlarını etibarlı şəkildə müdafiə edərək, düşmən hücumlarının qarşısını mərdliklə alıblar. 9 nəfər goranboylu döyüşçü "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülüb. Bu gün bütün qoşun növlərində, eləcə də xüsusi təyinatlı təhsil müəssisələrində yüzlərlə goranboylu Vətənə layiqincə xidmət edir. İldən-ilə gənclər hərbi peşələrə daha böyük maraq göstərir və talelərini Vətənə xidmət peşəsinə həsr edirlər. Müharibə veteranları, şəhid ailələri, döyüşlərdə sağlamlıqlarını itirənlər dövlət tərəfindən hərtərəfli qayğı ilə əhatə olunub.

Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbani çıxış edərək tədbir iştirakçılarına Müdafiə Nazirliyi rəhbərliyinin salamlarını yetirib və bildirib ki, nazirliyin rəhbərliyi hər bir hərbi qulluqçunun xidmətini həmişə yüksək qiymətləndirir, istefada və ehtiyatda olan hərbçilərimiz də diqqətdən kənarda qalmır. Keçən əsrin doxsanıncı illərinin əvvəllərində döyüş orden və medallarına təqdim olunmalarına baxmayaraq, hələ də layiq görüldükləri dövlət mükafatlarını almayan hərbi qulluqçuların sənədləri müvafiq komissiya tərəfindən yenidən araşdırılıb.



Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə ölkəmizin müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, öz xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə ehtiyatda və istefada olan bir qrup hərbi qulluqçu da təltif edilib. Onlardan biri də istefada olan mayor Telman Orucovdur.

Könüllü olaraq milli orduda əsgər kimi xidmətə başlayan T.Orucov Goranboy istiqamətində aparılan əməliyyatların fəal iştirakçılarından olub. Manqa komandirindən hərbi hissənin artilleriya rəisi vəzifəsinə və "mayor" hərbi rütbəsinə qədər yüksələn T.Orucovun rəhbərlik etdiyi artilleriya bölmələri düşmənin 2 top, 3 tank, 1 helikopter və 40-dan çox canlı qüvvəsini məhv edib. İçərisində 20 nəfərdən çox polis əməkdaşı olan milli aviasiyamıza məxsus helikopterin düşmən mühasirəsindən çıxması da onların şücaəti ilə bağlıdır. 28 ildən sonra müharibə veteranı, onun doğmaları və həmyerliləri ədalətin bərpa olunmasına görə dövlətimizin başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

"Azərbaycan Bayrağı" ordeni alqışlar altında keçmiş döyüşçüyə təqdim edilib. T.Orucovun silah yoldaşları adından Azərbaycanın Milli Qəhrəmanları Maşallah Abdullayev, Məhəmməd Həsənov, ziyalıların nümayəndəsi Namiq Məmmədov və digərləri çıxış edərək onu təbrik edib, bu gün də Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını vurğulayıblar.

Tədbirdə Azərbaycanın Milli Qəhrəmanı Maşallah Abdullayevə isə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" Azərbaycan Respublikasının yubiley medalı təqdim edilib.



*Ovqat*

# Qəhrəmanlar həmişə tarix yazırlar

İnsanların maraq dairəsindən heç vaxt uzaq düşməyən, daim onları özünə cəlb edən qəhrəmanlıq əsrləri yola salmış qos-qoca tarix üçün yenilik deyil. Daim maraq yetirdiyimiz tarixin səhifələri qanlı döyüş meydanlarında hünər göstərərək ad çıxarmış cəngavərlərin qəhrəmanlığı ilə doludur. Zaman-zaman müharibələr tarix olub, tarix kimi qəhrəmanlıqlara, qəhrəmanlara şahidlik edir. Yəqin ki, bundan sonra da dünya əzəldən nizamlandığı axarı ilə davam edəcək. Qəhrəmanlıq adlandırdığımız köklü-köhmərli ağacdan yeni pöhrələr boy verəcək.

Qəhrəmanlar güclərini həmişə döyüş meydanlarında göstəriblər. Hünərləri ilə düşmənləri diz çökdürüblər. Meydanlar üz-üzə gələn güclərin sınaq yeri olub. Yaşanmış tarix dönə-dönə sübut edib ki, döyüş meydanları insanlara cəsarətlərini göstərmək üçün sanki bir səhnədir. Bu, çoxlarının düşündüyü kimi sadəcə bir teatr səhnəsi deyil, tarixin qanlı səhnəsidir. İnsanlara şöhrət gətirən, amma qan-qada və müharibələrlə dolu bir səhnə! Müharibə sözünü dilimizə gətirəndə gözlərimiz önünə insanların hakimiyyət, torpaq və var-dövlət üstündə bir-birilərini al qana qərq etdikləri, ölüb öldürdükləri hərb meydanları gəlir. Həmin anlarda elə bil möcüzə baş verir ki, sanki bir göz qırpımındaca keçmişə dönür, canlı-canlı tarixə bağlanırıq. Bir-birini üstələməyə can atan pəhləvanların hənirtilərini duyur, odlu nəfəslərini hiss edir, şir kimi düşmən üzərinə atılan igidlərin qulaq batıran nərəsini, qılınc cingiltisini, ox vıyıltısını, at kişnərtisini və tüfəng səsini, pulemyot şaqqıltısını, top gurultusunu, tank nəriltisini eşidirik. Tarixin dərinliyindən gələn və bir-birinə həmahəng olan bu səslər bizi qəhrəmanlığa, ərməni qəsbkarları üzərində qələbələrə çağırır. Kəsilmək bilməyən həyəcan dolu hayqırtılar, gurlayan səslər gücümüzü artırdıqca artırır. Bunlar təkcə damarlarımızdan axan qanı coşdurmaqla kifayətlənmir, onlar həm də ovqatımıza ovqat qatır, böyük qələbələrə gedən yolların səmtini göstərir.

Tarix boyu qəhrəmanlar hələ sağ vaxtlarında ətraflarındakılar tərəfindən hörmətlə qarşılanıb. Dünyadan köçəndən sonra isə ehtiramla anılıb, hörmətlə yad ediliblər. Yəqin ki, bu gün aramızda qəhrəman olmaq, bu arzunun alovunda yanmayan, odunda qızınmayan kimsə tapılmaz.

Dünya binə olandan, ilk müharibələr, döyüşlər başlanandan insanlar qan-qadadan qorxub geri çəkilməyiblər. İgidliyin əlindən möhkəm-möhkəm yapışaraq qəhrəmanlıq göstərməyə susayıblar, ölümün gözünün içinə dik baxa-baxa qələbə qazanıblar. Qəhrəmanlığa can atmaq qələbə deməkdir, qəhrəmanlığa susamaq uğur deməkdir, qəhrəmanlığı arzulamaq tarixin səhifəsində əbədi iz qoymaq deməkdir. Qəhrəmanlar hünərləri ilə daim düşmən üzərində zəfər çalıb şərəflə dolu ömür yaşayıb, tarix yazıblar. Elə bir tarix ki, zaman-zaman onlara başucalığı gətirib. Elə bir tarix ki, onunla yalnız fəxr edib qürur duymaq olar. Elə bir tarix ki, onları səhifələrində qoruyub saxlaya-saxlaya vəsf edəcəkdir. Elə bir tarix ki...

Ədəbiyyatın şah əsərlərindən sayılan və oxucu sevgisi qazanan qəhrəmanlıq dastanları həmişə sirli-sehirli cazibəsi ilə bizi özünə çəkib. Dastanları mütaliə etdikcə özümüzü qəhrəmanların arasında hiss edir, həyatımız boyu cəsarətdə, hünərdə onlara oxşamaq istəyirik. Mütaliə boyunca əlçatmaz xəyallar qurur, qorxmadan döyüş meydanlarına atılır, insanları heyrət və riqqətə gətirən qəhrəmanlıqlar göstərməyi arzulayırıq. Bu anlarda sanki düşüncələrimiz əlimizdən tutub bizi tarixin səhifələrinə səyahətə aparır. Oxuduğumuz bu doyumsuz dastanlardan boy verən ülvi duyğular, bəşəri hisslər daim bizi igidliyə, cəsarətə səsləyir, can və qan bahasına başa gələn böyük qələbələrə ruhlandırır. İnsan doğulusundan qəhrəmanlıq göstərməyə, xariqələr yaratmağa köklənir. Deməli, insan qürurla yaşamaq, qurub yaratmaq, döyüşlərdə qəhrəmanlıq göstərmək, el-obasını düşməndən qorumaq üçün doğulur.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Moskvada keçirilən "Katyuşa" festivalı uğur gətirdi

*Azərbaycan musiqisi çoxəsrlik və zəngin tarixə malik uzun bir yol keçərək bu günümüzə gəlib çıxıb. Qədim abidələrimizdə öz tarixini yaşadan musiqilərimiz mədəniyyət xəzinəmizin nadir sənət inciləridir. Qobustan, Gəmiqaya qaya rəsmlərində qədim Azərbaycan musiqisinin izləri qorunur. Bu gün Azərbaycan musiqisinin sədaları ölkəmizdən kənarda böyük konsert salonlarından eşidilir. Bununla da xalqımız zəngin musiqi irsini geniş təbliğ etməklə, dünya klassik musiqisinin inkişafına əvəzsiz töhfələrini bəxş edir. Təsadüfi deyildir ki, Azərbaycan muğamı UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilib.*



Dədə Qorqud boylarından boy atan hərb, savaş musiqimiz, cəngimiz ordunu düşmən üzərində qələbəyə ruhlandırıb. Bəli, musiqi ruhlandırır, musiqi coşdurur, musiqi qələbəyə səsləyir. Xalqımızın hərbi musiqi tarixində marşlar, hərbi mahnılar əsgəri döyüşə ruhlandıran əsas vasitələrdən sayılıb. Tarixi ənənə bu gün də davam etdirilir. Böyük Vətən müharibəsindən, Qarabağ savaşlarından doğulan qəhrəmanlıq, vətənpərvərlik mövzusu yeni-yeni hərbi musiqilərimizin yaranmasına zəmin oldu. Müstəqil Azərbaycanın ordu quruculuğunda önəm kəsb edən hərbi musiqi ənənələrinin yaşadılması, inkişafı, daha da təkmilləşməsi prosesi Şəxsi Heyət Baş İdarəsinin Hərbi Orkestr xidmətinin rəisi, Xalq artisti, professor, general-mayor Yusif Axundzadənin rəhbərliyi altında uğurla davam etdirilir.



Noyabrın əvvəllərində Moskva şəhərində keçirilən "Katyuşa" hərbi-musiqi festivalında respublikamızı Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestrinin və Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının solistləri təmsil ediblər. Keçmiş SSRİ-nin beş respublikasının iştirak etdiyi hərbi-musiqi festivalı Böyük Vətən müharibəsində qələbənin 75 illiyinə həsr olunmuş XIV festival çərçivəsində təşkil olunmuşdu.

"Yaşasın Qələbə!" adı altında keçirilən müsabiqənin şərtlərinə uyğun olaraq, hərbi musiqiçilərdən ibarət hər bir komanda vətənpərvərlik ruhunda bəstələnən, ordu, müharibə mövzusunda mahnılar, marşlar və klassik musiqilər ifa edib. Hərbi-musiqi festivalının final mərhələsi noyabrın 8-də başa çatıb. Yüksək nəticələr qazanan və festival çərçivəsində təşkil olunan konsert proqramlarında uğurlu çıxışlar edən hərbçi musiqiçilərimiz Vətənə qayıdıblar.

Müdafiə Nazirliyinin Əlahiddə Nümunəvi Orkestrinin rəisi, Əməkdar incəsənət xadimi, dosent, polkovnik-leytenant Rüfət Axundzadə festival haqqında məlumat verdi. "Qeyd etdiyiniz kimi, XIV festival çərçivəsində təşkil olunan "Katyuşa" hərbi-musiqi festivalında solistlərimiz iki ildir ki, iştirak edirlər. Keçən il orkestrimizin solisti baş gizir Kənan Qədimov bu festivalda üçüncü yeri qazanmışdı. Bu il isə solistlərimiz Əməkdar artist gizir Səbinə Əsədova və baş gizir Kənan Qədimovun həm ayrılıqda, həm də duet şəklində ifa etdikləri mahnılar alqışlarla qarşılanıb. Onlar festival çərçivəsində keçirilən "Yaşasın Qələbə!" müsabiqəsində ikinci yeri qazanıblar. Müsabiqənin laureatı adını alaraq, diploma layiq görülüblər. Bu, Azərbaycan mədəniyyətinin hərbi-musiqi həyatında əlamətdar bir hadisədir. Əminəm ki, orkestrimizin solistləri gələcəkdə də belə festivallarda Vətənimizi layiqincə təmsil edəcəklər."

Əlahiddə Nümunəvi Orkestrin solistləri və müsabiqənin qalibləri gizir Səbinə Əsədova, baş gizir Kənan Qədimov Moskva şəhərində keçirilən "Katyuşa" hərbi-musiqi festivalı barədə təəssüratlarını "Azərbaycan Ordusu" qəzetinin oxucuları ilə bölüşdülər.

**Səbinə Əsədova:** "Biz Vətənimizi, Azərbaycanımızı təmsil etdik. Belə tədbirlərdə iştirakçı olmaq böyük şərəfdir. Müsabiqələrdə yüksək nəticələr göstərmək hər birimizdən böyük məsuliyyət tələb edir. Çox sevinirik. Ölkəmizi layiqincə təmsil edə bildik. Gələn il bundan da yüksək yerləri qazanacağıq. Onun üçün də öz üzərimizdə daha çox işləməliyik. Yeni yaradıcılıq axtarışlarında olmalıyıq. Məsuliyyət hissimizi daha da artırmalıyıq. Festivalda şərtlərə uyğun olaraq hərbi vətənpərvərlik mahnıları, marşlar və klassik musiqilər də ifa etdik. Hər ölkə öz vətənpərvərlik mahnılarını ifa etdi. Finalda Kənanla Elza İbrahimovanın "Ey Vətən" hərbi vətənpərvərlik mahnısını duet oxuduq. Birgə çıxışımız alqışlarla qarşılandı. Festivalın final mərhələsində 1-ci yerə Belarus Respublikasının nümayəndələri layiq görüldü. 2-ci yeri Azərbaycanın, 3-cü yeri Qazaxıstan, Qırğızıstan, Türkmənistan respublikalarının nümayəndələri tutdular."

**Kənan Qədimov:** "Mən keçən il bu festivalda tək iştirak etmişdim. Bu il festivala Səbinə Əsədovayla birlikdə qatıldıq. Festivalın əhəmiyyəti böyükdür. Müsabiqədə iştirakçı olan ölkələrin hərbi musiqiləri ilə yaxından tanış olmaq imkanı qazanırsan. Hərbçi musiqiçilərlə əməkdaşlıq yaranır. Bu sahədə təcrübən artır. Festivalda yaddaqalan məqamlardan biri də odur ki, bizim hərbi musiqilərimizi, marşlarımızı iştirakçılar çox sevdilər. Hərbi musiqimiz müharibə şəraitində yaranır. Ona görə də hər birində yüksək yaradıcılıq nəfəsi duyulur və bu da musiqini daha effektli edir. Özünə tamaşaçı rəğbəti qazandırır. Arzu edirəm ki, biz də tezliklə Azərbaycanımızın musiqi beşiyi olan Şuşamızda, Qarabağımızda Böyük Qələbəmizə həsr edilən mahnı festivalları keçirək."

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin mahnı və rəqs ansamblının solistləri gizir Günay Qasımovanın və Mətləb Ağayevin də "Katyuşa" hərbi-musiqi festivalı çərçivəsində təşkil edilən konsertlərdəki çıxışları uğurlu olub. Onlar Böyük Vətən müharibəsində qazanılan qələbəyə, Vətənə həsr edilən mahnıları və milli hərbi marşlarımızı, dünya klassik musiqilərini böyük ustalıqla ifa ediblər. Hər iki solist hərbi-musiqi festivalında uğurlu çıxışlarına görə fəxri fərman, diplom, hədiyyələrlə mükafatlandırılıb.



**Günay Qasımova:** "Festival iştirakçıları ifa etdiyimiz hər bir musiqimizi böyük maraqla dinləyirdilər. Biz milli musiqilərimizi böyük səhnələrdə ifa edəndə qürur hissi keçiririk. Fikirləşirik ki, buradan Azərbaycan mədəniyyətinin hərbi musiqi ənənələrini ölkəmizdən kənarda biz təbliğ edirik. Səhnəyə çıxanda çox həyəcanlı idik... Çıxışlarımız çox uğurlu alındı.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

*22 noyabr 2019-cu il.*
Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 21 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım kəndində və adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Tağıbəyli, Novruzlu, Mərzili, Füzuli rayonunun Aşağı Seyidəhmədli, Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Hərbi qulluqçular uşaq evlərini ziyarət ediblər

Bir qrup hərbi qulluqçu Mingəçevir şəhər Mərkəzi xəstəxanasının Uşaq nevroloji sanatoriyasında və Şəki Qarışıq Tipli uşaq evində olublar.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, uşaq nevroloji sanatoriyasını ziyarət çərçivəsində hərbi qulluqçular xüsusi qayğıya ehtiyacı olan, eləcə də valideyn himayəsindən məhrum olan uşaqların problemləri ilə maraqlanıb, onlara sovqatlar təqdim ediblər.

Şəhid Aqşin Abdullayevin valideynlərinin iştirakı ilə Şəki Qarışıq Tipli uşaq evində keçirilən görüşdə isə A.Abdullayevlə eyni gündə doğulmuş uşaqlara ad günü münasibətilə diplom və hədiyyələr təqdim edilib.

Tədbirlər əyləncəli proqramla başa çatıb.

Bu kimi ziyarətlərin gələcəkdə də, xüsusilə əlil uşaqların ad günləri münasibəti ilə təşkil ediləcəyi planlaşdırılır.

# “Ermənistanın faşist ideologiyası, etnik təmizləmə və dövlət terrorizmi siyasəti”

*Elmi araşdırmalar beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorunun tarixinin 100 ildən çox olduğunu göstərir. Erməni millətçiləri XIX əsrin sonunda - 1885-ci ildə Marseldə "Armenakan", 1887-ci ildə Cenevrədə "Hnçaq", 1890-cı ildə isə Tiflisdə "Daşnaksütyun" partiyalarını yaratdılar. Bundan sonra ermənilərin "Böyük Ermənistan" yaratmaq iddiaları yeni mərhələyə qədəm qoydu. Erməni terror təşkilatları bu planı həyata keçirmək üçün siyasi terror aksiyalarından geniş istifadə edilməsini proqram sənədlərində başlıca vasitə kimi nəzərdə tutmuşlar. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, siyasi elmlər doktoru, "Azərbaycan Respublikası Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin sədr müavini Elçin Əhmədov deyib.*



O bildirib: "Erməni millətçilərinin ən aparıcı təşkilatı hesab edilən "Daşnaksütyun" - erməni federativ inqilab partiyasının əsas qayəsi Azərbaycanın Qarabağ, Naxçıvan və Türkiyənin Anadolu torpaqlarında "Böyük Ermənistan" dövləti qurmaqdır. 1892-ci ildə Tiflisdə ilk qurultayını keçirən "Daşnaksütyun" türklərə qarşı sui-qəsdlərin təşkil olunması barədə qərar çıxarmışdır.

"Daşnaksütyun" partiyasının keçirdiyi terror aksiyası "Nemezis" əməliyyatı adlanır. 1919-cu ilin oktyabrında "Daşnaksütyun" partiyası İrəvanda keçirdiyi IX qurultayda "Nemezis" intiqamçı terror hərəkatına başlamaq haqqında qərar vermişdir. Armen Qaronun rəhbərlik etdiyi "Nemezis"in siyahısına Türkiyənin və Azərbaycanın 650 dövlət xadiminin və ziyalısının adları salınmışdı. Ayrı-ayrı ölkələrdə fəaliyyət göstərən 3-5 nəfərlik terrorçu qrupların məqsədi adları siyahıda olan şəxsləri axtarıb taparaq qətlə yetirmək idi. Həmin dövrdə Türkiyə və Azərbaycanın dövlət xadimləri, ziyalıları "Daşnaksütyun" partiyasının "Nemezis" terror hərəkatının hədəfinə çevrilmişdilər.

Belə ki, 1920-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri Nəsib bəy Yusifbəyli, parlamentin sədri Həsən bəy Ağayev Tiflis şəhərində ermənilər tərəfindən qətlə yetirilmişlər. Həmin ildə Azərbaycan Xalq Cümhuriyyətinin xarici işlər naziri Fətəli xan Xoyski Tiflis şəhərində erməni terrorçuları tərəfindən qətlə yetirilmişdir.

1921-ci il martın 15-də Osmanlı imperiyasının daxili işlər naziri Tələt paşanı Berlində qətlə yetirmiş Soqomon Teyleryan yaxalansa da, sonradan Berlin məhkəməsi ona bəraət vermişdir. Bir qədər sonra isə, iyulun 18-də Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər naziri Behbud xan Cavanşir Türkiyənin İstanbul şəhərində "Daşnaksütyun" partiyasının üzvü Misak Torlakyan tərəfindən qətlə yetirilmiş, lakin həmin dövrdə İstanbul şəhərini nəzarətə götürmüş İngiltərə qoşunlarının hərbi məhkəməsi tərəfindən ruhi xəstə adı ilə qatilə bəraət verilmişdir. Bu terror aktlarının davamı olaraq 1922-ci il avqustun 4-də ermənilər tərəfindən Osmanlı imperiyasının hərbi naziri Ənvər paşa Əfqanıstan yaxınlığında, həmin il iyulun 25-də isə Tiflis şəhərində Camal paşa və onun müavini erməni terrorçuları Petros Ter-Poqosyan və Artaşes Gevorkyan tərəfindən qətlə yetirilmişdir.

XX əsrin ikinci yarısında "Daşnaksütyun" partiyası tərəfindən bir sıra terror qrupları yaradıldı. Ötən əsrin 60-70-ci illərində erməni terror təşkilatlarının fəaliyyəti daha da genişləndi. Belə ki, 1975-ci ildə yaradılan "Ermənistanın azadlığı uğrunda gizli erməni ordusu" (ASALA) adlı təşkilat həmin dövrdən başlayaraq Türkiyədə və Avropa ölkələrində bir sıra terror aktları törətmiş ki, nəticədə günahsız insanlar erməni terrorizminin qurbanı olmuşlar.

Erməni terror təşkilatları ötən əsrin 70-80-ci illərində bütün dünyada türk diplomatlarına, 90-cı illərin əvvəllərində isə Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və Ermənistanla sərhəd bölgələrində azərbaycanlılara qarşı genişmiqyaslı terror aktları həyata keçirmişlər. Bununla yanaşı, 1981-ci ildə Fransada yaşayan erməni gəncləri tərəfindən yaradılmış "Orli qrupu" 1987-ci ilədək dünyanın müxtəlif hava limanlarında 10-dan artıq terror aktı törətmişdir. Avropanın bir çox ölkələrində fəaliyyət göstərən "İsveçrə qrupu" Fransa, İtaliya və Yunanıstanda həyata keçirilmiş 4 terror aktının məsuliyyətini öz üzərinə götürmüşdür.

XX əsrin 80-ci illərinin ikinci yarısında ermənilər özlərinin xaricdəki himayədarlarının köməyi ilə "Böyük Ermənistan" ideyasını həyata keçirmək üçün aşkarlıq və demokratiyadan istifadə edərək yenidən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə dair ərazi iddiaları irəli sürdülər. SSRİ-nin süqutu ərəfəsində Ermənistan silahlı qüvvələri xaricdən gətirilmiş terror qrupları ilə birgə Dağlıq Qarabağdan 50 min, eləcə də Ermənistandan 250 mindən artıq azərbaycanlını soyqırımı və təcavüzə məruz qoyaraq tarixən yaşadığı torpaqlardan didərgin salmışlar.

Həmin illərdə Moskva-Bakı sərnişin qatarlarında, Tbilisi-Bakı, Tbilisi-Ağdam, Ağdam-Şuşa, Ağdam-Xocalı marşrutları üzrə avtomobillərdə törədilən terror aktları nəticəsində yüzlərlə azərbaycanlının həyatına son qoyuldu. Minlərlə azərbaycanlı keçmiş SSRİ-nin hakim dairələri tərəfindən himayə edilən ermənilərin işğalçılıq siyasətinin qurbanı oldu. Belə ki, 1991-ci ilin iyun-dekabr aylarında erməni silahlı qüvvələrinin Xocavəndin Qaradağlı və Əskəran rayonunun Meşəli kəndinə hücumu nəticəsində 12 nəfər öldürüldü, 15 nəfər isə yaralandı. Bu dövrdə Şuşa-Cəmilli, Şuşa-Mingəçevir, Ağdam-Xocavənd, Ağdam-Qaradağlı və Ağdam-Şuşa, Laçın-Şuşa avtobuslarının erməni silahlı qüvvələri tərəfindən atəşə tutulması və terror aktları nəticəsində 17 nəfər həlak oldu, 90 nəfərə qədər azərbaycanlı yaralandı.

27 il əvvəl - 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən Mİ-8 tipli mülki vertolyot vurulmuş, nəticədə Xankəndinə sülhməramlı missiya ilə səfər edən 22 nəfər, o cümlədən yüksək vəzifəli şəxslər - Azərbaycan Respublikası Milli Məclisinin deputatları, Dövlət katibi, Baş nazirin müavini, Dövlət müşaviri, Daxili İşlər naziri, Baş Prokuror, Rusiya Federasiyasından olan müşahidəçilər, Qazaxıstan Respublikasının Daxili İşlər nazirinin birinci müavini və 3 nəfər ekipaj üzvü həlak olmuşdur.

1992-ci ilin əvvəllərində ermənilər daha dəhşətli cinayətlər törətdilər. Yanvarın 28-də Ağdamdan Şuşaya uçan 27137 saylı Mİ-8 vertolyotu şəhərə çatmamış, yəni, Xəlfəli kəndinin üzərində Xankəndi tərəfdən raket atəşi nəticəsində partladıldı, içərisində olan 3 nəfər heyət üzvü və 41 sərnişin həlak oldu. Həmin il fevralın 25-dən 26-na keçən gecə Xocalıda azərbaycanlılara qarşı törədilən vəhşiliklərdə və soyqırımında Ermənistan silahlı qüvvələri ilə yanaşı, keçmiş SSRİ-nin Xankəndidə yerləşən 4-cü ordusunun 23-cü diviziyasına daxil olan 366-cı motoatıcı alayın tərkibində 50-dən çox erməni zabiti və giziri, eləcə də erməni terror təşkilatları yaxından iştirak etmişlər.

1994-cü il martın 19-da Bakı Metropoliteninin "20 Yanvar" stansiyasında törədilmiş terror aktı nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər yaralanmışdır. Həmin il iyulun 3-də Bakı Metropoliteninin "28 May" və "Gənclik" stansiyaları arasında elektrik qatarında erməni terrorçuları tərəfindən törədilmiş partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır.

1988-1994-cü illərdə, eyni zamanda, dövlət terrorizmi və soyqırımı siyasəti yeridən Ermənistan tərəfindən Azərbaycan ərazilərində ümumilikdə, müxtəlif səpkili 373 terror aktı törədilmişdir ki, nəticədə 1200 nəfər həlak olmuş, 1705 nəfər yaralanmışdır. Ayrılıqda götürdükdə:

- sərnişin avtobuslarında törədilmiş terror aktları nəticəsində 68 nəfər həlak olmuş, 132 nəfər yaralanmışdır;
- sərnişin və yük qatarlarında törədilmiş terror aktları nəticəsində 74 nəfər həlak olmuş, 125 nəfər yaralanmışdır;
- Bakı Metropolitenində törədilən terror aktları nəticəsində 27 nəfər həlak olmuş, 91 nəfər yaralanmışdır;
- hava nəqliyyatında törədilmiş terror aktları nəticəsində 104 nəfər həlak olmuşdur;
- yaşayış məntəqələrində və mülki obyektlərdə törədilmiş terror aktları nəticəsində 881 nəfər həlak olmuş, 1239 nəfər yaralanmışdır;
- mülki və dövlət obyektlərinə qarşı törədilmiş terror aktları nəticəsində 10 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır;
- sərnişin daşıyan dəniz bərəsində törədilmiş terror aktı nəticəsində 25 nəfər həlak olmuş, 88 nəfər yaralanmışdır.

Minlərlə insanın tələfatı ilə nəticələnən bu terror aktlarından sonra müxtəlif bəhanələrlə azadlığa buraxılan məşhur terrorçular beynəlxalq terrorizmə qarşı mübarizə aparılan müasir dövrdə çox rahat şəraitdə yaşayır və Ermənistan Respublikası davamlı olaraq dövlət terrorizmi siyasəti yürüdərək onları himayə edir.

Ermənistan dövlətinin və erməni diasporunun maliyyə, eləcə də təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terrorçu təşkilatlarının Azərbaycana qarşı həyata keçirdikləri terror aktları 1980-ci illərin ikinci yarısından başlayaraq ardıcıl xarakter almışdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədilə Ermənistanın xüsusi xidmət orqanları hətta hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalisinin yaşadığı məntəqələrdə terror aktları təşkil etmiş, nəticədə minlərlə günahsız insan həlak olmuşdur.

Son illərdə Ermənistanın mərkəzində və digər bölgələrində faşist Almaniyasının SS birləşmələrinin generalları - "Njde" ləqəbli Qaregin Ter-Arutyunyan və "Dro" ləqəbli Drasmat Kanayanın heykəllərinin qoyulması da faşizmə olan rəğbətin bariz nümunəsidir. 2016-cı il mayın 28-də Ermənistan rəhbərliyinin bilavasitə iştirakı ilə şəhərin mərkəzində nasist Njdenin heykəli açıldı. Bununla yanaşı, ermənilərin faşizm təbliğatı təkcə Ermənistanla məhdudlaşmır. Rusiyadakı erməni icması hər il Njdenin Vladimirdəki qəbrini nümayişkaranə şəkildə ziyarət edir, erməni faşisti yad edirlər. Hətta, 2013-cü ildə Ermənistanda çəkilmiş "Qaregin Njde" filmi Rusiyada da nümayiş etdirilmişdir. Ancaq bu "qəhrəman"ların alman nasistləri ilə sıx əlaqələri haqqında danılmaz faktlar xarici ölkələrin arxivlərində, həmçinin Rusiyanın özündə də kifayət qədərdir.

Bununla yanaşı, qeyd etmək lazımdır ki, 1918-1920-ci illərdə Azərbaycanın tarixi torpaqları olan Naxçıvan, Zəngəzur və Qarabağda Njde və digər erməni terrorçuları azərbaycanlı əhalini kütləvi şəkildə qırmaqla məşğul olmuşlar. Daha sonra isə İkinci Dünya müharibəsində almanların işğal etdikləri torpaqlarda milliyyətindən asılı olmayaraq əsirlərə qarşı amansız qəddarlıqları ilə fərqlənən, Üçüncü Reyxə xidmətləri ilə fəxr etdiklərini bildirən həmin generallara abidə ucaltmaqla, Ermənistan hakimiyyəti antisemitizm ideologiyasını həyata keçirərək, bu gün də irqçi neonasist ideologiyanı davam etdirir.

2019-cu il oktyabrın 11-də Türkmənistanın paytaxtı Aşqabad şəhərində MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev işğalçı Ermənistanın faşist ideologiyasını dövlət siyasətinə çevirdiyini diqqətə çatdıraraq bir daha dünyaya bəyan etdi: "Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib".

Prezident İlham Əliyev tutarlı faktlara əsaslanaraq təcavüzkar Ermənistanın faşist ideologiyasını ifşa edərək bildirdi ki, Rusiya Federasiyasının Müdafiə naziri Sergey Şoyqunun sədrliyi ilə Müdafiə Nazirliyinin baş redaksiya heyəti tərəfindən nəşr edilmiş 12 cildlik "1941-1945-ci illərin Böyük Vətən müharibəsi" ensiklopediyasının "Böyük Vətən müharibəsi illərində gizli müharibə, kəşfiyyat və əks-kəşfiyyat" adlı VI cildində dərc edilmiş "Müharibənin son dövründə hərbi əks-kəşfiyyatın fəaliyyəti" adlı məqalədə deyilir: "Əks-kəşfiyyatçılar 114-cü Dromedar oberqrupu barəsində agentura işi çərçivəsində daşnak ordusunun keçmiş generalı, almanların yanında Njde ləqəbi ilə xidmət etmiş mühacir Ter-Arutyunyanı aşkar edib və həbsə alıblar. Böyük Vətən müharibəsi illərində o, Bolqarıstan ərazisində milliyyətcə erməni olan 30-dan çox agent cəlb edib, onların təxribat hazırlığında və pozucu fəaliyyət üçün Qızıl Ordunun arxa cəbhəsinə atılmasında iştirak edib. SMERŞ qrupunun əməkdaşları tərəfindən 17 təxribatçı saxlanılıb, qalanları barədə axtarış elan edilib. Njde həm də Avropanın yəhudi əhalisinə qarşı Holokostda iştirak edib. 1942-ci ildə o, Sovet İttifaqına qarşı döyüşən erməni legionu təşkil edib. Njdenin əsas şüarı belə idi: "Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur".

Bütün bunlar onu söyləməyə əsas verir ki, Azərbaycan Prezidenti İlham Əliyev "Valday" Beynəlxalq Diskussiya Klubunun toplantısında, eləcə də MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclasında çıxışı zamanı Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Ermənistan rəhbərliyi tərəfindən səsləndirilən və tarixi reallıqları, münaqişənin əsl mahiyyətini əks etdirməyən bəzi fikirlərə və əsassız iddialara tam aydın və konkret şəkildə cavab verdi. Bununla da dövlətimizin başçısı Ermənistanın işğalçılıq siyasəti və faşist ideologiyası yürütdüyünü bir daha bəyan edərək Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi kimi tanındığını dünya birliyinin diqqətinə çatdırdı və qeyd etdi ki, Ermənistana özünü cəzasızlıq şəraitində hiss etməsinə imkan verməməli, Ermənistan rəsmilərinin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü kobud surətdə pozan hüquqazidd addımlarını pisləməli, onun qarşısını almalıdır.

*Əsgər dostluğu*

# "Bir ömürdə neçə ömür yaşadırıq biz"

*Yeniyetmələr çağırış yaşına çatır. Çağırışçılar hərbi xidmətə başlayır. Müxtəlif rayonlarda boya-başa çatanların ömür yolu beləcə qoşalaşır. Bu qoşalaşma müqəddəs bir niyyətə görə müqəddəs bir vəzifənin yerinə yetirilməsi ilə bağlıdı. Bu müqəddəslik Vətəndi. Gənc əsgərlər birlikdə Hərbi andı içir, yəni, müqəddəsliyə sədaqətlə xidmət edəcəklərinə ictimaiyyətin, valideynlərin, hərbi hissənin zabitlərinin iştirakıyla keçirilən təntənəli andiçmə mərasimində söz verirlər. Azərbaycan Respublikasının vətəndaşı kimi: "Mən Azərbaycan Respublikasının vətəndaşı...", - deyərək and içirlər. Vətəndaşlıq kəlməsi onların ürəyinin təpərinə, gözlərinin nuruna dönür o anlarda.*



Hamısı həyəcan keçirir.

Hamısının həyəcanı tez sovuşur.

Gənc əsgərin əli dost əlində isinir. Hərbi Nizamnamələri birlikdə öyrənirlər, zabitlərin öyrətdiklərini birlikdə mənimsəyirlər. Kiçik komandirin nəzarəti ilə Sıra Nizamnaməsinin təmrinlərini, tələblərini birlikdə məşq edirlər. Silahların atış xüsusiyyətlərini də birlikdə öyrənirlər. Hərdən bir-birinə kömək də edirlər. Asudə vaxtlarda daha yaxından tanıyırlar bir-birini, söhbətləşə-söhbətləşə ürəkdən ürəyə yol düşür. Bunlar gənc əsgərlər arasında dostluq münasibətlərinin başlanğıcı olur. Hərdən döyüş növbətçiliyinə də bir gedirlər, yəni, Vətəni birlikdə qoruyurlar. Bu məqamlar onların ömrünə yazılır.

Asudə vaxtlarda əsgərlər müxtəlif mövzularda söhbətləşirlər. Nədən danışır əsgərlər? - Vətəndən, torpaqdan, hərbi xidmətdən, ailələrindən, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedəcək döyüşlərdən, o döyüşlərdə iştirak etmək istəyindən...

Əsgərlər nədən danışırlar danışsınlar, söhbət səmimi olur. Bir dəfə belə söhbətlərdən birini eşitmişdim - bizdən on-on beş addım aralıdaydılar. Əsgərlərdən biri xalq şairi Məmməd Arazın "Vətən mənə oğul desə, nə dərdim...", - misrasını xatırlatmışdı:

- Hərəmiz bir ailədən gəlmişik. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun adını daşıyan postda atası oğlunun barelyefinə baxanda dediyi kəlmələri heç zaman unutmaram: "Mənim oğlum idin, oğul, indi Vətənin oğlusan". Yəni, elə xidmət etməliyik ki, təkcə ata-anamızın deyil, həm də Vətənin oğlu ola bilək....

Belə gözəl düşüncəyə görə əsgəri bağrıma basardım - bu ara onu çağırdılar, tələsik uzaqlaşdı...

Mənə elə gəlir ki, əsgərlərin bütün söhbətlərində bu məqama toxunulur...

Əsgər əsgər dostuyla nədən danışır? - həm də əsgər dostluğundan. Gələcəkdə bu münasibəti necə davam etdirəcəklərindən bircə kəlmə də söz açmırlar, ancaq söhbətin mahiyyəti bu münasibətin son nəfəsəcən davam edəcəyini ifadə edir.

Bir dəfə səngərdə əsgərlərlə söhbətləşirdik. Onda əsgərlərdən biri bir qədər duyğusallıqla demişdi:

- Atam həmişə hərbi xidmətindən, əsgər dostluğundan, əsgər dostlarından danışardı. Deyərdi ki, hər kəs qardaşıyla günün müəyyən hissəsini bir yerdə olur, hərbi xidmətdə əsgər əsgər dostuyla bütün sutkanı. Yəni, əsgər əsgər dostuyla daha sıx münasibətə malikdir. Atamın söhbətlərindən anlayırdım ki, əsgər yoldaşlığı əsgər dostluğunun başlanğıcıdır. Başlanğıcı səmimi olan münasibət səmimiyyətlə davam etdirilir və nəticədə səmimi dostluğa çevrilir...

Bu söhbəti bir neçə səngərdə xatırlatmışdım. Hər dəfə də əsgərlər bu söhbətin sonluğunda həmfikir olmuşdular - səmimi yoldaşlıq səmimi dostluğun başlanğıcıdı. Bakı Dövlət Universitetinin məzunu olmuş əsgər Tahir Əhmədov bir beyt demişdi:

***Yaxşı dost arzulayan***
***Yaxşı dost olmalıdır.***

Bu misranın ifadə etdiyi fikir səngərdə o qədər də uzun çəkməyən müzakirəyə səbəb oldu. Ən çox diqqəti çəkən məqam "Necə dosta yaxşı dost deyilməlidir?" fikri oldu. Zabit Rüstəm Məmmədov deyilən fikirləri Yunus Əmrənin bir misrasıyla ümumiləşdirdi:

***Bir mən də var***
***məndə məndən içəri...***

Yəni, yaxşı dost sənin ürəyində, qəlbində yaşatdığın dostdu və bu, həm də qarşılıqlı olmalıdı...

Ön xətdə xidmət edən İzzət Məmmədovla Qəhrəman Məmmədov əvvəlcə əsgər yoldaşı olublar, sonra bu münasibət yoldaşlığa, səmimiyyət, qarşılıqlı ehtiram bu münasibəti dostluğa çevirib. Əsgər dostluğudu bu dostluq. Hər ikisi nümunəvi xidmət edir, hər ikisi Böyük Qələbənin əsgəri olmaq istəyir.

Əsgər İzzət Məmmədov belə dedi:

- Hər əsgərin yaxın yoldaşları olur, yaxın yoldaşlar sırasında dostları. Mən yaxın dost ifadəsini qəbul etmirəm. Dost dostdur. Yaxın dost deyilərsə, uzaq dost da deyilməlidir. Bu isə mümkün deyil. Uzaq dost olmur. Qəhrəmanla əsgər yoldaşı olmuşuq. Bizi hansı xüsusiyyətlər dostlaşdırdı, bilmirəm. Onu bilirəm ki, Qəhrəman mənim dostumdur və son nəfəsəcən də dostum olacaq...

Əsgər Qəhrəman Məmmədov hərbi xidmətin ilk aylarını xatırladaraq dedi:

- Xidmətə başlayanda ilk tanışlığın da sonrakı münasibətə təsiri olur. Mən İzzətlə ilk tanışlıqda hiss etdim ki, xasiyyətimizdə, xarakterimizdə oxşar cəhətlər var və bu oxşar cəhətlər bizim aramızda səmimi yoldaşlıq yaratdı. Bu yoldaşlıq dostluq oldu. Mən həm də belə bir əsgərlə dostluqdan qürur duyuram.

Əsgərlər onu da dedilər ki, asudə vaxtlarda söhbətləşəndə, müəyyən mənada, bir-birindən nəyisə öyrənirlər də.

- Orta məktəbdə oxuyanda ədəbiyyat müəllimimizdən bir kəlam eşitmişdim: Dost ikinci mən deməkdir. Mən özümə ikinci mən bildiyim əsgər dostumla asudə vaxtlarda ən çox Vətəndən danışırıq. 2016-cı ilin Aprel döyüşlərindən danışırıq, Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradlardan danışırıq. Hərbi hissələrdə yaradılan yüksək şəraitdən danışırıq. Torpaqlarımızın işğaldan azad edilməsindən danışırıq. Qəzetinizdə bir məqalə dərc olunmuşdu: "Səngərləri sərhədlərə köçürəcəyik." Bu məqalənin mahiyyətindən danışırıq, həmin prosesin iştirakçısı olmaq istəyimizdən danışırıq...

"Səngərləri sərhədlərə köçürəcəyik" məqaləsi Azərbaycan əsgərinin amalının ifadəsi idi. Bu amalın başqa hərbi hissələrdə də böyük sevgilərlə yaşadılması şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olduğunu təsdiq edir. Fikrimi bildirəndə zabit məmnunluqla gülümsündü:

- Azərbaycan əsgəri bu amalla xidmət etdiyi üçün güclüdür. Mən də bu əsgərlərlə qürurlanıram. Əminəm ki, bu qürur yaşarı qürurdur.

Zabitin əsgərlərə ehtiramı mənə bir həqiqəti yenidən yaşatdı: əsgərini sevən zabit də güclüdür; Azərbaycan Ordusu güclü zabitlərin, güclü əsgərlərin ordusudur. Bu gücün başlanğıcı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğıdır, 2016-cı ilin Aprel döyüşlərində qazanılan qələbədir, Azərbaycan Ordusunun yaranmasının və Bakının işğaldan azad edilməsinin 100 illiyinə həsr olunmuş paradların möhtəşəmliyinin təəssüratlarıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi bir fikri xatırladıq: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır".

Bu əsgərlərlə söhbət hamımıza könül xoşluğu verdi. Hər ikisi ilə bir əminliklə səmimi sağollaşdıq: Bu dostluğa zaval olmayacaq. Onu İzzət də, Qəhrəman da mərdliklə yaşadacaqlar...

...Əsgər dostluğu müqəddəs bir borcun yerinə yetirilməsiylə bağlı olduğu üçün müqəddəs tutulur. Ona görə ömür bu münasibətlərlə daha da ülviləşir. Əsgər İzzət Məmmədovla əsgər Qəhrəman Məmmədov əsgər dostluğunu böyük ehtiramlarla, böyük sevgilərlə yaşadacaqlar. Həm də həsəd aparılacaq bir dostluq kimi....

Mənə belə gəlir ki, siz bir ömürdə iki ömür yaşadırsınız. Səhv etmirəm ki?, - deyirəm.

- Xeyr, səhv etmirsiniz, - İzzət də, Qəhrəman da belə dedi...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## ABŞ hərbi təyyarəsi Pakistanın hava məkanını pozmağa cəhd edib



Noyabrın 20-də Amerika Birləşmiş Ştatlarına məxsus hərbi təyyarəsi Pakistanın hava məkanını pozmağa cəhd edib.

Ölkənin hava məkanına daxil olmaq istəyən ABŞ-ın hərbi təyyarəsi geri qaytarılıb. Məlumatda bildirilir ki, müvafiq icazə və kod olmadan təyyarə Kəraçi istiqamətindən ölkə ərazisinə girmək istəyərkən xəbərdarlıq alıb və bundan sonra geri qayıtmağa məcbur olub.

ABŞ tərəfi hələlik hadisəni şərh etməyib.

## Hindistanda musson mövsümündə 2400-ə yaxın insan həlak olub



Hindistanda bu ilin musson mövsümündə azı 2391 nəfər həlak olub, 800 mindən çox ev zədələnib.

Bundan başqa, mövsüm ərzində 15,7 mindən çox iribuynuzlu mal-qara tələf olub, daşqınlar, leysan yağışlar və torpaq sürüşmələri səbəbindən 6,4 milyon hektar əkin sahəsinə zərər dəyib.

Bu barədə ölkənin daxili işlər naziri Nityanand Rai parlamentin sorğusuna cavabında bildirib.

İyunun axırlarında Cənubi Asiyaya son on ilin ən güclü mussonu gəlib. Yağışlar mövsümü adəti üzrə sentyabrda başa çatmayıb və oktyabrda da davam edib. Leysan yağışlar ölkənin müxtəlif regionlarında daşqınlara, nəqliyyat əlaqəsində problemlərə, binaların dağılmasına, çoxsaylı bədbəxt hadisələrə səbəb olub.

Təbii fəlakətin nəticələrinin aradan qaldırılmasına cəlb olunan 176 xüsusi qrup daşqın zonalarından 99 minə yaxın insanı xilas edib, 24 min nəfərə tibbi xidmət göstərib.

## Türkiyənin hava qüvvələrinin keçirdiyi əməliyyatlar nəticəsində 1144 terrorçu zərərsizləşdirilib



Türkiyənin hava qüvvələrinin keçirdiyi əməliyyatlar nəticəsində indiyədək ümumilikdə 1144 terrorçu zərərsizləşdirilib.

Bu barədə Türkiyənin Daxili İşlər naziri Süleyman Soylu məlumat verib.

Nazir bildirib ki, 2018-ci ildə zərərsizləşdirilən terrorçuların sayı 363 nəfərdir. Son 10 ay ərzində danışıqlar yolu ilə 289 terrorçu təslim olub. Bu ilin noyabr ayınadək FETÖ terror təşkilatı ilə əməkdaşlıqda şübhəli bilinən 559 min 64 nəfər barəsində müvafiq tədbirlər görülüb. Bu səbəbdən saxlanılan 261 min 700 nəfərdən 91 min 287-si həbs edilib. 2016-2019-cu illər ərzində Türkiyə ərazisində ümumilikdə 1058 İŞİD terrorçusu zərərsizləşdirilib. Türk Silahlı Qüvvələri tərəfindən Türkiyə sərhədlərindən kənarda terror təşkilatlarına qarşı aparılan əməliyyatların nəticəsi olaraq 368 min 217 suriyalı vətəninə qayıdıb.

## Əfqanıstanda helikopter qəzasında azı iki Amerika əsgəri həlak olub



Əfqanıstanda helikopter qəzasında azı iki Amerika əsgəri həlak olub. Məlumatı NATO-nun Əfqanıstanda Dəstək Missiyasının qərargahı yayıb.

Hərbi helikopterin qəzaya uğramasının dəqiq səbəbi araşdırılır. Eyni zamanda, qərargahın məlumatında deyilir ki, "ilkin araşdırmalar helikopterin düşməsinin düşmən hücumu nəticəsində olmadığını" göstərib.

ABŞ-ın Müdafiə Siyasəti Departamentindən verilən məlumata görə, helikopterdə həlak olan hərbçilərin adları 24 saat müddətində elan ediləcək.

**AZƏRTAC-ın materialları əsasında**

## Könlüm şeir istəyir

# Şeir könül söhbətidi

*Şeirin aşıladığı duyğular düşüncələrə daha tez hopur, bəzən oxuyanın həyat fəlsəfəsini də təkmilləşdirir. Hansı mövzuda yazılmasından asılı olmayaraq şeir bədii yükün miqdarında ovqat yaratmağa qadirdir.*

*Hər şairin öz üslubu, bu və ya digər mövzuya öz poetik münasibəti var; hər şeir bir ürəyin oxucuyla fərdi mükaliməlşməsidi. "Könlüm şeir istəyir" rubrikasında təqdim edilən şeirlər bu müxtəlifliyi eyniləşdirir; şeir könül söhbətidi.*

**"Azərbaycan Ordusu"**

**İlham Qazaxlı**

### Vətən

Qucağında göz açdığım,
Məskənim, yurdumdu Vətən...
Gözlərimdə həyat eşqi,
Sinəmdə odumdu Vətən.

Saf eşqim, saf məhəbbətim,
Ülviyyətim, səadətim,
Məfkurəm, ülvi niyyətim,
Müqəddəs andımdı Vətən.

Damarımda axan qanım,
Təmiz məslək, pak vicdanım,
Hissim, duyğum, ruhum, canım,
Qolum-qanadımdı Vətən.

Heysiyyətim, ləyaqətim,
Ucalığım, şan-şöhrətim,
Şərəfim, arım, qeyrətim,
Qürurum, adımdı Vətən.

Məqsəd, arzu diləyimdir,
Vuran nəbzim, ürəyimdir,
Ruzim-duzum, çörəyimdir,
Ləzzətim, dadımdı Vətən.

Odum, közüm, ataşimdir,
Əbədiyyət Günəşimdir,
Zirvəyə yüksəlişimdir,
Kamım, muradımdı Vətən.

**Qəzənfər Məsimoğlu**

### Təbiət

Mamırlı qayalar çimər yağışda,
Yenə xınalar əlin, təbiət.
Qoruyar ismətin ögey baxışdan,
Duvaqlı, yaşmaqlı gəlin təbiət.

Şimşəklər bağrını doğrayar, kəsər,
Qalmaz şaqqıltıdan bir səs, bir əsər.
Əsər, incə əlli küləklər, əsər,
Daranar qız kimi telin, təbiət.

Buludlar ayrılar doğma tağından,
Al günəş boylanar bəy otağından,
Bəzənər hər tərəf göy qurşağından,
Bağlanar o incə belin, təbiət.

Dərələrdə qıvrım iz açar sellər,
Qırx incə boğazlar, qırx incə bellər,
Oxuyar bülbüllər, oyanar güllər,
Açılar körpətək dilin, təbiət.

**İlham İnam**

### Cocuq Mərcanlıya qayıdır köçüm

Yoxdur sevincimin həddi-hüdudu,
Qaçqınlıq adını adımdan silin.
Necə də şirindir doğmalıq adı,
Bizi bu dünyanın xoşbəxti bilin.
Cocuq Mərcanlıya qayıdır köçüm.

Bir baxın, varlığın başqa haldadır,
Torpağı gözümə elə təpəcəm.
İllərdir o elin gözü yoldadır,
Ağacı öpəcəm, daşı öpəcəm.
Cocuq Mərcanlıya qayıdır köçüm.

Küsmüş məzarlarla barışacağam,
Ruhlar da özünü həlak edəcək.
Bir dünya sevincə qarışacağam,
Kədər ilim-ilim itib gedəcək,
Cocuq Mərcanlıya qayıdır köçüm.

Divar tanıyarmı, yadırğamayıb,
Babamın köhnəlmiş tüfəngini də.
Deyirəm unutmam, burda qoymayın
Nənəmin mis rəngli səhəngini də,
Cocuq Mərcanlıya qayıdır köçüm.

Uşaqlar dağ ilə dərə görəcək,
Həyətdə, qapıda salacaq şuluq.
Ordum qələbədən müjdə verəcək,
Böyük qayıdışın qaranquşuyuq,
Cocuq Mərcanlıya qayıdır köçüm.

**Mehman Göytəpəli**

### Yuxumun qapısın açıq saxladım

Hayana baxıram ordasan, orda
Çiçəyə, çəmənə, gülə dönmüsən.
Sanki zərrələri bütün dünyaya,
Bütün yer üzünə səpələnmisən.

O eşqin alovu, o eşqin odu,
Hələ çıxmayıbdı canımdan, hələ.
Sənin təravətdə, sənin biçimdə,
Bir gözəl keçməyib yanımdan hələ.

Səsini çayların zümzüməsindən,
Ətrini yellərdən alıb qoxladım.
Bu gecə yanıma gələrsən deyə,
Yuxumun qapısın açıq saxladım.

### Çiçəklə oynayan o qız

Çiçəklə oynayan o qıza bir bax,
Bir zaman xəyaldı, gerçəyə dönüb...
Elə bürünübdü al çiçəklərə,
Özü də gül olub, çiçəyə dönüb...

De, necə ovudum bu gülü, Allah?!,
Düşüb qapanımmı ayaqlarına?!
İlahi, bu çiçək necə bənzəyir
Küsəyən o qızın dodaqlarına...

Onu ürəyimə zərlə yazmışam,
Silinə bilməsin, qopa bilməsin.
Qoymuşam qəlbimin dərin yerində
Ki, ölüm gələndə tapa bilməsin....

**İsmayıl İmanzadə**

### Qız

Kölgə kimi harayasa çəkildi,
Damla-damla gözlərimdən töküldü.
Rəngi solğun xatirəydi, şəkildi
Həsrətimdə göyərən qız, bitən qız.

Ocaq idim, isinmədi közümə,
Ha səslədim bənd olmadı sözümə.
Xəyalında gülümsəyib üzümə
Gözlərimin qabağında ötən qız...

Mən bir yorğun yolçu idim, sən çapar,
Çıxıb getdin... saçlarıma yağdı qar.
Gözlərimdə közün qalıb, gəl apar
Ay illərin zülmətində itən qız.

**Ramiz Qusarçaylı**

### A bənövşəm mənim

O nə boylanışdı, dolmusan yenə,
A bənövşəm mənim, süsənim mənim.
Özü bu dünyanı sevdirib mənə
Özü bu dünyadan küsənim mənim.

Gör bulaq dərəyə nə dil açdırıb,
Tənha daşlara da könül açdırıb,
Həsrəti gözümdə gül-gül açdırıb
Qönçə dodağını büzənim mənim.

Gecələr rəng alır qara telindən,
Dara mənsizliyi, dara, telindən.
Düşüb ürəyimə yara telindən
Tel-tel ürəyimi üzənim mənim.

Dərdə də tək dözür canım, can keçib,
Qüruba enirsən danımdan keçib,
Üz-üzə gələndə yanımdan keçib,
Məni yuxularda gəzənim mənim.

Eh … bu da bir eşqin ayrı dağları,
Üşüyür kölgəsi aylı çağların.
Düzüb zülüm-zülüm ayrılıqları
Üstündə meh kimi əsənim mənim,
A bənövşəm mənim, süsənim mənim…

### Qurudub göndərmə bənövşələri

Əlimə alınca əlim qurudu.
Qurudub göndərmə bənövşələri.
Nəfəsim qurudu, dilim qurudu
Qurudub göndərmə bənövşələri.

Çatmadım bu il də yaza bilirəm,
Darıxa bilirəm, susa bilirəm,
Özüm quruyanda dözə bilirəm
Qurudub göndərmə bənövşələri.

Əl saxla, dər saxla, təzə-tər saxla,
Çıxart ürəyimi, üstə sər, saxla,
Mənə də ölməyə bir az yer saxla
Qurudub göndərmə bənövşələri.

**Əşrəf Veysəlli**

### Olsa

Təzədən gələrəm bu dünyaya mən ,
Bir də o yerlərə güzarım olsa.
O Şuşa söylənən, Laçın deyilən.
Kəlbəcər adlanan gülzarım olsa.

Yenə həsrətimin gözü toxuydu,
Bir yola çıxmışdım,.. yolsa yoxuydu.
Bəlkə də görduyüm yaxşı yuxuydu,
Onu yaxşı-yaxşı yozanım olsa.

İşıq gələn yerdən şəfəq saçılar,
Açılar bu bağlı yollar, açılar.
Mənim sevincimin bəxti açılar.
Mənim dərdlərimi çözənim olsa.

Bir dağam, başımdan qar əskik olmaz,
Tərlan oylağından sar əskik olmaz.
Mənim söz bağımdan bar əskik olmaz,
Nə qədər tez düşən xəzanım olsa.

Minlərlə ağacım, şivim yıxılmış,
Hanı o Cırtdan ki, divi yıxırmış?..
Mənim Veysəllidə evim yıxılmış,
Ölmərəm! - o kənddə məzarım olsa.

**Nisə Bəyim**

### Mən vida etmədim ayrılıqlara

Mən vida etmədim ayrılıqlara,
Tutdum əllərini titrəyən qəmin...
Gözümü çəkmədim dərdin gözündən,
Yığdım ürəyimə buludun, nəmin...

Yolların gözünü döydü yağışlar,
Damcılar iz saldı yanaqlarıma...
Bütün ümidini itirən yollar
Yorulub sarıldı ayaqlarıma...

Çəkib yumaqladım uzaqlıqları,
Qərib həsrətləri yaxın elədim...
Rüzgarın sevdalı yağışlarını
Günlərin üstünə şəhtək çilədim...

Öpdüm, qoxuladım xatirələri,
Uçurtdum bir ovuc kəpənək kimi...
Mən vida etmədim ayrılıqlara,
Yol etdim ardınca yorğun qəlbimi...

# İdman

## Uşu üzrə İpək Yolu açıq Avrasiya turnirində Azərbaycanı 15 idmançı təmsil edəcək



Noyabrın 26-dan dekabrın 1-dək Türkiyənin paytaxtı Ankarada uşu üzrə beynəlxalq İpək Yolu açıq Avrasiya turniri keçiriləcək.

Turnirdə ölkəmizi yeniyetmə, gənclər, böyüklər və qadınlardan ibarət 15 nəfərlik komanda təmsil edəcək.

Qeyd edək ki, beynəlxalq yarışda ölkəmizdən başqa, İran, İraq, Əfqanıstan, Qırğızıstan, Belçika, Yunanıstan, Rusiya, Gürcüstan və Qazaxıstandan 600-ə yaxın idmançı qüvvəsini sınayacaq.

## Məhəmmədrəsul Məcidov peşəkar boksda ikinci döyüşünü keçirəcək



Azərbaycan boksçusu Məhəmmədrəsul Məcidov peşəkar boksda ikinci döyüşünü keçirəcək.

Boksçumuzun növbəti rəqibi ingiltərəli Tom Litll olacaq. Qarşılaşma dekabrın 7-də Səudiyyə Ərəbistanında keçiriləcək.

Qeyd edək ki, 32 yaşlı boksçu peşəkar rinqdəki ilk döyüşünü sentyabrın 13-də Nyu-Yorkda amerikalı Ed Fonteynə qarşı keçirib və onun debütü qələbə ilə başa çatıb. Belə ki, M.Məcidov döyüşün 4-cü raundunda rəqibini texniki nokautla məğlub edib. Bu, E.Fonteynin karyerasında 7-ci məğlubiyyəti olub. Otuz yaşlı amerikalı boksçu ümumilikdə, 19 qarşılaşma keçirib.

## Sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı keçiriləcək




Dekabrın 4-6-da "Sərhədçi" İdman Olimpiya Mərkəzində sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatı keçiriləcək.

Yarışın əsasnaməsinə uyğun olaraq, mübarizəyə yunan-Roma güləşçiləri start verəcək. Belə ki, dekabrın 4-də bütün çəki dərəcələri üzrə pəhləvanlar xalça üzərinə çıxacaqlar. İlk yarış günündə finalçılar müəyyənləşəcək, eləcə də təsəlliverici qarşılaşmalar keçiriləcək. Növbəti gün axşam seansında həlledici görüşlər baş tutacaq və güləşin bu növündə medalçılar bəlli olacaq. Dekabrın 4-də sərbəst güləş üzrə yarışa start veriləcək. Həmin gün bu növ üzrə 10 çəkidə finalçıların adlarına aydınlıq gətiriləcək. Ertəsi gün əvvəlcə təsəllivérici, daha sonra medal görüşləri təşkil olunacaq. Qeyd edək ki, yarışlar hər gün saat 10:00-da başlayacaq. Çempionatın açılış mərasimi dekabrın 5-də 17:00-da start götürəcək. Çempionat boyunca arenaya giriş pulsuz olacaq.

## Qadın voleybolçularımız Qızıl, kişilərdən ibarət komandamız isə Gümüş Avropa Liqasında mübarizə aparacaq



Kişi və qadın voleybolçulardan ibarət milli komandalar arasında keçirilən Avropa Liqasının formatında dəyişiklik edilib. Avropa üzrə reytinqi yüksək olan komandalar Qızıl, digər yığmalar isə Gümüş Avropa Liqasında iştirak edəcəklər. 2020-ci ilin may-iyun aylarında təşkil olunacaq yarışda qadınlardan ibarət millimiz Qızıl, kişi voleybolçularımız isə Gümüş Avropa Liqasında mübarizə aparacaqlar.

**AZƏRTAC-ın materialları əsasında**

Ramazanov Sədiyar Pirim oğluna 2011-ci ildə verilmiş müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Lalə HÜSEYNOVA

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 947
Nüsxə 3950